# Türkiyə, Pakistan və Banqladeş nümayəndə heyətləri ilə görüşlər

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Türkiyə Respublikasının, Pakistan İslam Respublikasının və Banqladeş Xalq Respublikasının nümayəndə heyətləri ilə görüşlər keçirilib.**



Bu görüşlərdə ölkələrimiz arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində ikitərəfli əlaqələr barədə fikir mübadilələri aparılıb, gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

Türkiyə Respublikasının əmək və sosial müdafiə nazirinin müavini Lütfihak Alpkanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş zamanı nazir Anar Əliyev ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinə əsaslanan əməkdaşlığın sosial sahədə də əlaqələrin genişlənməsinə imkan yaratdığını diqqətə çatdırıb.

L.Alpkan ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın ildən-ilə genişlənməsindən məmnunluğunu ifadə edib, bu əlaqələrin gələcək inkişafı üçün səylərin qarşıdakı dövrdə də davam etdiriləcəyini bildirib.

Görüşdə nazirliklər arasında əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın fəaliyyəti barədə fikir mübadilələri aparılıb, gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Pakistan İslam Respublikasının xaricdə yaşayan pakistanlılarla iş və insan resurslarının inkişafı üzrə federal naziri Çaudri Salik Hüseynlə görüşdə Azərbaycan-Pakistan ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin dövlət başçılarının birgə səyləri ilə uğurla inkişaf etdiyi qeyd olunub.

A.Əliyev dostluq və əməkdaşlıq əlaqələrimizin mövcud səviyyəsindən məmnunluğunu bildirib, bu əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini ifadə edib.

S.H.Çaudri DOST Konsepsiyasının Pakistanda tətbiqi üçün ölkəmizin təcrübəsini öyrənməyə maraqlı olduqlarını bildirib.

Nazirliklər arasında Anlaşma Memorandumunun həyata keçirilməsinə dair növbəti dövr üçün Tədbirlər Planının hazırlanması məsələsi nəzərdən keçirilib.

Banqladeş Xalq Respublikasının əmək və məşğulluq naziri Muhammad Sakhavat Hussainlə görüşdə ölkələrimiz arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin inkişafına böyük önəm verildiyi diqqətə çatdırılıb. Beynəlxalq təşkilatlar, o cümlədən İƏT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

M.S.Hussain İƏT-in Əmək Mərkəzinin Bakıda keçirilən iclasının əhəmiyyətini qeyd edib, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin genişlənməsində maraqlı olduqlarını bildirib.

Azərbaycan.- 2025.- 25 sentyabr (№205).- S.8.